## Əməkdaşlıq fəaliyyətləri

- AQTA ilə Türkmənistanın müvafiq qurumları arasında qida təhlükəsizliyi, baytarlıq və bitki sağlamlığı sahələrində əməkdaşlıq həyata keçirilir.
- 2024-cü il 11 mart tarixində Türkmənistandan ölkəmizə məhsul ixrac etmək niyyətində olan “Maksada Okgunly” müəssisəsində Agentliyin mütəxəssisləri tərəfindən videomonitorinq keçirilmiş və qiymətləndirmənin nəticəsinə əsasən adıçəkilən müəssisə təsdiq edilərək, Agentliyin reyestrinə daxil edilmişdir.
- 2024-cü il 6 mart tarixində Agentlik və Türkmənistanın Bitki karantini uzrə Dövlət Xidmətinin nümayəndə heyətləri arasında videokonfrans formatında görüş keçirilmişdir. Görüşdə karantin nəzarətində olan məhsulların idxal, ixrac və tranzit daşınması zamanı karantin fitosanitar nəzarətinin tənzimlənməsi, bitki karantini və mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq, fitosanitar sertifikatların verilmə qaydası və hər iki ölkənin fitosanitar vəziyyəti haqqında məlumat mübadiləsi aparılmışdır.
- Həmçinin, Türkmənistanla ölkəmiz arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində müvafiq olaraq Kodeks Alimentarius Komissiyası, Bitki Mühafizəsi haqqında Beynəlxalq Konvensiya və Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı çərçivəsində əməkdaşlıq və məlumat mübadiləsi həyata keçirilir.